

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 178 (21.330)

*11 sentyabr 2015-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakının Nəsimi rayonundakı Texniki-Humanitar Liseydə görülən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, təhsil ocağının binası 1963-cü ildə istifadəyə verilib. Əvvəllər axşam məktəbi kimi fəaliyyət göstərən binada 2000-ci ilə qədər Dağıstan Universitetinin filialı yerləşib. Həmin il Texniki-Humanitar Lisey təsis olunub və bu binada fəaliyyətə başlayıb. Liseyin binasında bu günədək əsaslı təmir işləri aparılmayıb. Üçmərtəbəli binada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.

Dövlətimizin başçısına Texniki-Humanitar Liseyin şagirdləri üçün nəzərdə tutulan məktəbli formaları və çantalar barədə də məlumat verilib. Qeyd edilib ki, bu ildən təbiq olunacaq bu formalar şagirdlərin rahatlığı nəzərə alınaraq hazırlanıb.

Liseydə 43 otaq var. Onlardan 24-ü sinif otağı, digərləri isə fənn kabinetləri və laboratoriyalardır. İdman zalı da müasir səviyyədə qurulan təhsil ocağının həyətində geniş abadlıq və quruculuq işləri görülüb.

Prezident İlham Əliyev siniflərdə yaradılan şəraitlə tanış olub.



## Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni inzibati və təsərrüfat binaları istifadəyə verilmişdir





Muxtar respublikada kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına şərait yaratmışdır. Son illər bu sahədə görülən işlər balıqçılıq təsərrüfatının inkişafı üçün də geniş imkanlar açmışdır.

Sentyabrın 10-da Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni inzibati və təsərrüfat binaları istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nın direktoru Nazim Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bazarın tələbatının keyfiyyətli balıq məhsulları ilə ödənilməsi diqqət mərkəzində saxlanılır. Bu işlər "Kənd təsərrüfatı ili"ndə də uğurla davam etdirilir. Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahənin inkişafına göstərilən qayğının daha bir ifadəsidir. Artıq təsərrüfatın fəaliyyətinin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmışdır. Nazim Məmmədov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1979-cu ildən müxtəlif adlarla fəaliyyət göstərən Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün yeni inzibati və təsərrüfat binalarının istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: 2015-ci il ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan olunmuşdur. "Kənd təsərrüfatı ili"ndə qarşıda duran əsas vəzifə məhsul istehsalını artırmaqdan və ərzaq təhlükəsizliyini təmin etməkdən ibarətdir. Ərzaq təhlükəsizliyinin təmin olunmasında digər sahələrlə yanaşı, balıqçılıq təsərrüfatlarının inkişaf etdirilməsi də mühüm əhəmiyyət daşıyır. Ona görə də muxtar respublikada bu sahənin yenilənməsi və inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Bu gün Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün istifadəyə verilən inzibati və təsərrüfat binaları da muxtar respublikada balıqçılıq təsərrüfatı sahəsində fəaliyyətin yeni tələblər əsasında qurulmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan "Balıqçılıq Təsərrüfatı" əvvəllər balıq ovu və satışı istiqamətində fəaliyyət göstərirdi. Lakin yaradılan şərait təsərrüfatda muxtar respublikanın su hövzələri üçün müxtəlif balıq sortlarının yetişdirilməsinə də imkan verəcəkdir. Hazırda təsərrüfatın fəaliyyəti Heydər Əliyev, Araz, Arpaçay və Uzunoba su anbarlarını əhatə edir. Bu günədək muxtar respublikanın su hövzələrində balıq artırılması qonşu ölkələrdən alınan balıqlar hesabına həyata keçirilirdi. Lakin bundan sonra təsərrüfatda su hövzələrinin bioloji xüsusiyyətlərinə və əhali tələbatına uyğun balıq sortları yetişdiriləcəkdir. Ona görə də Naxçıvan "Balıqçılıq Təsərrüfatı" bu istiqamətdə fəaliyyətini gücləndirməli, tələbat nəzərə alınmalı, daxili bazar keyfiyyətli balıq məhsulları ilə təmin olunmalıdır.

Qeyd olunmuşdur ki, muxtar respublikada əhalinin balıqla təminatı Naxçıvan "Balıqçılıq Təsərrüfatı" tərəfindən həyata keçirilir. Ölkəmizin inkişafı, əhali sayının, tələbatın artması balıqçılıq təsərrüfatının da genişləndirilməsini zərurətə çevirdi. Bu səbəbdən də Naxçıvan "Balıqçılıq Təsərrüfatı" üçün müasir iş şəraiti yaradıldı. Məqsəd isə əhalinin keyfiyyətli balıq məhsulları ilə təminatına və balıqçılığın inkişafına nail olmaqdan ibarətdir. Gələcəkdə təsərrüfatın nəzdində balıq məhsulları istehsalı sahəsi də qurulmalı, bura muxtar respublikanın özəl balıqçılıq təsərrüfatları üçün təcrübə və baza yeri olmalıdır.

Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə olunacağına əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, yeni inzibati binanın, qapalı balıq yetişdirmə hovuzlarının və anbarın istifadəyə verilməsi ilə Naxçıvan "Balıqçılıq Təsərrüfatı"nın fəaliyyəti xeyli genişləndirilmişdir.



İnzibati bina 2 mərtəbədən ibarətdir. 1-ci mərtəbədə 5 iş otağı və mətbəx, 2-ci mərtəbədə 4 iş otağı və iclas zalı vardır. Qapalı hovuzların hər birində 25 min olmaqla il ərzində 1 milyon balıq yetişdirilməsi nəzərdə tutulur. Hovuzların daimi su axını ilə təmin olunması suda oksigenin və mikroorqanizmlərin bol olmasına imkan verir. Bu da balıqların yetişdirilməsi və artırılması üçün mühüm şərtdir.

Anbarda tutumu 2 ton olan soyuducu kamera qoyulmuşdur. Həmçinin ərazidə videonəzarət sistemi yaradılmış, həyətdə geniş abadlıq işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan dünən və bu gün*

# Muxtar respublikamız dünyanın təhlükəsiz regionlarından birinə çevrilib

***Müstəqillik illərində muxtar respublikada bütün sahələrdə müşahidə olunan inkişaf doğma diyarımızın simasını nəzərəçarpacaq dərəcədə dəyişdirib, yurdumuz abad, gözəl və bununla birlikdə regionun ən təhlükəsiz bölgələrindən birinə çevrilib.***

Ümummilli liderimiz Heydər Əliyev ötən əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə də, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi zaman ərzində də, ölkədə hakimiyyətə qayıdışından sonra da hüquq-mühafizə orqanlarında islahatların həyata keçirilməsini, maddi-texniki bazanın möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayıb. Bu orqanların fəaliyyətinin yaxşılaşdırılması istiqamətində ümummilli liderimizin əsasını qoyduğu tədbirlər hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Dövlət başçısının 2006-cı il 2 noyabr tarixli “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Fərmanının icrası istiqamətində muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilib. Bu gün daxili işlər orqanlarının iş şəraiti yüksək səviyyəyə çatdırılıb, maddi-texniki bazası möhkəmləndirilib, onlar üçün yeni binalar tikilib. Hüquq-mühafizə orqanları isə işlərini günün tələbləri səviyyəsində qurmağa səy göstərir, öz işlərində böyük uğurlar əldə edirlər. Təkcə bir faktı qeyd edə bilərik ki, əgər 1994-cü ildə muxtar respublikada 774 cinayət hadisəsi qeydə alınmışdısa, 2003-cü ildə bu rəqəm 120-yə, 2014- cü ildə 26-ya, cari ilin ötən dövründə isə 10-a endirilib. Qəsdən adamöldürmə ilə bağlı 1993-cü ildə 18, qəsdən adam öldürməyə cəhdlə bağlı 4, qəsdən sağlamlığa zərər vurmaqla bağlı 20 cinayət hadisəsi qeydə alınmışdı. Cari ilin ötən dövründə isə bu tip cinayətlər qeydə alınmayıb. 1992-ci ildə oğurluqla bağlı 301 cinayət işi başlanmışdısa, cari ilin ötən dövründə bu qəbildən cəmi 5 hadisə baş verib. Bir faktı da diqqətə çatdırmaq yerinə düşər ki, 1993-cü ildə muxtar respublikada xuliqanlıqla bağlı 40 cinayət hadisəsi qeydə alınmışdı. Müstəqillik illərində, xüsusən son 20 ildə aparılan profilaktik tədbirlərin nəticəsidir ki, bu ilin ötən dövründə xuliqanlıqla bağlı heç bir hadisə baş verməyib. 90-cı illərin əvvəllərində törədilən cinayətlərin açılma göstəricisi 90 faizdən yuxarı olmurdusa, 2000-ci ilin əvvəllərində bu göstərici 100 faizə çatdırılıb. Digər bir maraqlı məqam ondan ibarətdir ki, 90-cı illərin əvvəllərində hər il yüzdən artıq ağır və xüsusilə ağır cinayətlər baş verirdisə, cari ilin ötən dövründə bu qəbildən cinayət qeydə alınmayıb. Bütün bu göstəricilər müstəqillik illərində daxili işlər orqanlarının gərgin əməyinin nəticəsində əldə edilib.

Bəli, statistik göstəricilərdən də aydın olur ki, Naxçıvan Muxtar Respublikasında sabitliyin əldə olunmasında hüquq-mühafizə orqanlarının böyük rolu olub. Təhlükəsizliyin və asayişin tam bərpa olunmasına doğru yüksələn xətlə inkişaf edən bu proses ümummilli liderimiz Heydər Əliyevin 1994-cü il avqustun 9-da imzaladığı əhalidə olan qanunsuz silahların yığılması məqsədini daşıyan “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Fərmanından sonra daha da geniş vüsət alıb. Məhz bu fərmandan sonra daxili işlər orqanları tərəfindən əhalidə olan 7000-ə yaxın silah və xeyli miqdarda sursat yığılıb. 2015-ci ilin ötən dövründə isə 106 odlu silah aşkarlanaraq götürülüb.

Polis orqanlarının əməkdaşları keçmişdə də, indi də öz dövlətinin, xalqının asayişinin keşiyində durub, bu yolda böyük fədakarlıqlar göstəriblər. Bu, əldə olunan nailiyyətlərin çoxsaylı səbəblərindən yalnız biridir. Daxili İşlər Nazirliyinin mərkəzi aparatının inzibati binası da daxil olmaqla, bütün ərazi, xətt polis orqanlarının inzibati binaları yenidən qurulub, xidməti avtomobillər yüksək sürəti və zəngin texniki təminat ilə fərqlənən xarici markalı avtomobillərlə əvəz olunub. Cinayətlərin qısa zaman kəsiyində açılmasında kriminalistik təhqiqatların əhəmiyyətli rolu nəzərə alınaraq inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən istifadə olunub, nazirliyin kriminalistik təhqiqatlar bölməsi ən müasir ləvazimatlarla təchiz edilib. Bundan başqa, nazirliyin əməliyyat rabitə bölməsi genişləndirilmiş informasiya-kommunikasiya şöbəsinə çevrilib. Həmin şöbənin tabeçiliyində “Təhlükəsiz şəhər” adı altında monitor kabinəsi yaradılıb, şəhər ərazisində quraşdırılan 154 kamera vasitəsi ilə ictimai asayiş və yol hərəkəti təhlükəsizliyi mütəmadi olaraq nəzarətdə saxlanılıb. Daha 15 kameranın isə yaxın günlərdə quraşdırılması nəzərdə tutulub. Bütün bu tədbirlər nəticəsində muxtar respublikamız dünyanın ən təhlükəsiz regionlarından birinə çevrilib.


Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daim ön planda olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 avqust 1996-cı il tarixli “Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında” Sərəncamından sonra muxtar respublikada narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı genişmiqyaslı mübarizəyə başlanılıb. Məhz həmin sərəncamdan sonra narkomaniya ilə mübarizə sahəsində dönüş yaranıb, həmin ildə daxili işlər orqanları tərəfindən 136 fakt aşkarlanıb. Əgər 1994-cü ildə narkotik maddələrlə bağlı 104 hadisə qeydə alınmışdısa, bu ilin ötən dövründə cəmi 3 fakt aşkar edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin çıxışlarından birində belə bir tövsiyə var: ***“Hüquq-mühafizə orqanlarının, prokurorluq orqanlarının işçiləri gözləməməlidirlər ki, nə vaxtsa bir cinayət hadisəsi, hüquqpozma halı baş versin və onlar öz fəaliyyətlərini həyata keçirsinlər”.***

Bu gün Naxçıvan Muxtar Respublikası regional müstəvidəki liderliyini cinayətkarlığın aşağı səviyyədə olması ilə davam etdirməkdədir. İlk növbədə, iqtisadi inkişafın və əhali məşğulluğunun yüksək səviyyəsi ilə bağlı olan bu proses digər tərəfdən, hüquq-mühafizə orqanlarının cinayətin baş vermə səbəbini araşdırmaqdan daha çox onun baş verməməsi üçün profilaktik tədbirlərə üstünlük verməsinin nəticəsidir.

2008-ci ildə muxtar respublikamızın cinayətsiz region, Naxçıvan şəhərinin isə təhlükəsiz şəhər elan edilməsi hüquq-mühafizə orqanı kimi daxili işlər orqanlarını işə məsuliyyəti artırmağa, hüquqi təbliğat işini səmərəli qurmağa, qabaqlayıcı tədbirlər görməyə sövq edib.


Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası

Hər bir cəmiyyətin gələcək inkişafı uşaqların necə yetişdirilməsindən asılıdır. Bu səbəbdən də onların sağlam mühitdə böyüməsi, layiqli vətəndaş kimi formalaşması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Sağlam və mütərəqqi sosial mühitin yaranması istiqamətlərindən biri də yetkinlik yaşına çatmayanların cinayətə meyil etmələrinin başvermə səbəblərinin öyrənilməsidir. Məhz bu istiqamətdə Daxili İşlər Nazirliyi tərəfindən müvafiq iş aparılmaqdadır. Bir faktı qeyd etmək yerinə düşər ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin sayı 1993-cü ildə 40 idisə, ondan 10 il sonra 3-ə enib. Son illərdə isə bu qəbildən hadisə qeydə alınmayıb.

Muxtar respublikada yol hərəkəti təhlükəsizliyinin təmin olunması istiqamətində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi, Dövlət Yol Polisi İdarəsi üçün yeni inzibati binanın inşa edilməsi, xidməti avtomobillərin sayının artırılması, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, adıçəkilən idarənin binasında müasir texniki avadanlıqların, magistral yollarda sürətölçən rəqəmsal radar sistemlərinin quraşdırılması, xidməti avtomobillərə kompüter və nəzarət-izləmə kamerası qoyulması nəqliyyat vasitələrinin hərəkətinə nəzarətin günün tələbləri səviyyəsində təşkilinə və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına xidmət edir. Muxtar respublikanın şəhər və rayonlarında müayinə mərkəzlərinin yaradılması isə nəqliyyat vasitələrini texniki baxışdan keçirmə prosesini xeyli asanlaşdırıb. 1975-ci ildə muxtar respublikada cəmi 5500 nəqliyyat vasitəsinin qeydiyyatda olmasına baxmayaraq, yüzlərlə nəqliyyat hadisəsi baş verir, təbii ki, bu hadisələr nəticəsində insan itkiləri çoxalırdı. Ancaq bu gün muxtar respublikada 40 minə yaxın nəqliyyat vasitəsi qeydiyyatdadır. Lakin hadisələrin sayı barmaqla sayılacaq qədər azdır. Əgər 1994-cü ildə muxtar respublikada 46 yol-nəqliyyat hadisəsi baş vermişdisə, 2014-cü ildə heç bir hadisə qeydə alınmayıb.“Təhlükəsiz şəhər” xidmətinin texniki imkanları sayəsində bir sıra cinayətlərin qarşısı alınıb, 2 mindən artıq yol hərəkəti qayda pozuntusu aşkar edilərək müvafiq tədbirlər görülüb.


Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi

Muxtar respublikada polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan mühüm addımlardan biri də səyyar xidmətlərin tətbiqidir. Son illərdə muxtar respublikamızda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza yaradılıb, dövlət orqanlarının əksəriyyətində əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər vaxt itkisini, eləcə də digər çətinlikləri aradan qaldırıb. Cari ilin fevral ayının 9-da 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən aidiyyəti qurumlara əhaliyə müvafiq xidmətlərin səyyar qaydada həyata keçirilməsinin təmin edilməsi haqda verilən tapşırıq doğma diyarımızda dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub. Bu addım muxtar respublika sakinləri tərəfindən əhaliyə göstərilən xidmətlər sahəsində atılan uğurlu addımın, dövlətimizin öz vətəndaşına, bütövlükdə, insan amilinə verdiyi dəyərin təzahürü kimi qiymətləndirilir. Tapşırıqdan sonrakı müddətdə müvafiq tədbirlər həyata keçirilib, maddi-texniki baza yaradılıb. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə “Hyundai” markalı avtomobil verilib. Avtomobil səyyar xidmətin göstərilməsi üçün avadanlıqlarla təchiz edilib. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili muxtar respublikanın bir sıra kənd yaşayış məntəqələrində olub, 4500 vətəndaşa yerlərdə səyyar xidmət göstərilib.

Son 20 ildə cinayətkarlığa qarşı mübarizəni gücləndirmək üçün polis əməkdaşlarının professionallığının artırılmasına da xüsusi diqqət göstərilib. Təbii ki, cinayətlərin üstü tez bir zamanda açıldıqca kriminal hadisələri törədənlər də başqa üsul və vasitələrə əl atır, ən müasir texnikalardan istifadə edirlər. Buna görə də muxtar respublika polisi daim öz üzərində işləyir, cinayətkarlığın qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirir. Digər tərəfdən yerlərdə əhali ilə daimi olaraq profilaktik söhbətlər aparılır, ictimai asayişin məhz vətəndaşların mənafeyinə xidmət etdiyi qeyd edilir. Bunun nəticəsidir ki, muxtar respublika sakinlərinin polislə, digər hüquq-mühafizə orqanları ilə əlaqəsi qarşılıqlı hörmət əsasında qurulub. Təkcə bir faktı qeyd etmək istərdik ki, son illərdə baş verən cinayətlərin əksəriyyəti muxtar respublika sakinlərinin yaxından köməyi ilə açılıb. Bu da onu göstərir ki, muxtar respublika sakinləri daxili sabitliyin, əmin-amanlığın, ictimai asayişin təmin olunmasında maraqlıdır. İndi Naxçıvan Muxtar Respublikası bütövlükdə regionun ən təhlükəsiz bölgələrindən biridir. Biz bununla fəxr etməliyik. Eyni zamanda hər bir Naxçıvan sakini gələcəkdə də bu əmin-amanlığın, asayişin qorunması üçün əlindən gələni etməlidir. Çünki muxtar respublikamızın gələcək inkişafı, iqtisadiyyatımızın, sosial problemlərimizin həlli daxili sabitliyin, asayişin qorunmasından asılıdır.

Cinayətlərin azalmasının bir səbəbi də, heç şübhəsiz ki, muxtar respublikada müşahidə olunan iqtisadi inkişafdır. Əhalinin rifahının yüksəlməsi, işsizliyin aradan qaldırılması da bu işə təsir edən amillərdəndir.

Bütün bu görülən işlər muxtar respublika sakinlərinin təhlükəsizliyi, əmin-amanlığının təmin olunmasına hədəflənib. Çünki muxtar respublikada ən çox diqqət göstərilən sahə sakinlərimizin təhlükəsizliyinin, əmin-amanlığın qorunmasıdır.

***Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublika sakinləri təhlükələrlə üzləşib. Vaxtilə Naxçıvan şəhərində, eləcə də rayon mərkəzləri və kəndlərdə insanlar gün batandan sonra küçəyə çıxa bilmirdilər. Cinayətkarlıq baş alıb gedirdi. Elə gün olmazdı ki, sakinlər gecəyarısı atılan güllələrin səsindən səksənib oyanmasınlar, özlərini qorumaq üçün çarəsizcə müxtəlif vasitələrə əl atmasınlar, öz övladının küçəyə çıxmasından nigarançılıq keçirməsinlər, qorxu, vahimə içində yaşamasınlar. İndi tamam başqa bir mənzərədir. Naxçıvan sakinləri qorxu içində yaşamır, öz övladını küçəyə buraxanda və yaxud da özü küçədə gəzərkən, hər hansı bir ictimai yerdə istirahət edərkən bilir ki, dövləti onun təhlükəsizliyini təmin edir. Bu isə son 20 ildə muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində mümkün olub.***

**Səbuhi HÜSEYNOV**

*Yazı “Naxçıvan: müstəqillik illərində” yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür*

## Təhsil işçilərinin sentyabr konfransı keçirilmişdir

***Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində muxtar respublikanın təhsil işçilərinin sentyabr konfransı keçirilmişdir. Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək əvvəlcə yeni dərs ilinin başlaması münasibətilə təhsil işçilərini təbrik etmiş, 2014-2015-ci tədris ilinin yekunları və qarşıda duran vəzifələr barədə danışmışdır.***



Qeyd olunmuşdur ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı bu qayğının bariz nümunəsidir. Hazırda Şərur rayonunda Kürçülü, Şərur şəhər 2 nömrəli, Oğlanqala, Axaməd, Yuxarı Yaycı, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Xəlilli, Xal-xal, Yarımca, Ordubad rayonunda Gilançay, Tivi, Culfa rayonunda Saltaq, Qızılca, Gal, Şahbuz rayonunda Daylaqlı, Kəngərli rayonunda Yurdçu kənd tam orta məktəbləri və yeni yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması, Ordubad Şəhər Texniki-Peşə və Sürücülük Məktəbi üçün binanın yenidən qurulması davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində milli-mənəvi dəyərlərimizi özündə əks etdirən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir. Belə ki, 2014-2015-ci tədris ilində muxtar respublikamızda yerləşən 12 muzey ilə ümumtəhsil məktəbləri arasında canlı bağlantılar yaradılmışdır. Muxtar respublikamızda muzeylərlə 200-dən çox məktəbin virtual əlaqəsi yaradılmış və şagirdlərimizin birbaşa olaraq məktəblərimizdən canlı şəkildə milli-mənəvi irsimizə aid biliklərinin artırılmasına xidmət edən bu işlər tədris ili boyu davam etdirilmişdir.

Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsi, müəllimlik fəaliyyətinin stimullaşdırılması və müəllimlərin əməyinin qiymətləndirilməsinin təmin olunması məqsədilə 1-18 mart 2015-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 aprel 2015-ci il tarixli "Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması haqqında" Sərəncamı ilə Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmışdır. 2015-2016-cı tədris ilindən fəaliyyətə başlayacaq Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində sənəd qəbulu komissiyası yaradılmışdır. Komissiya tərəfindən muxtar respublika ümumtəhsil məktəblərindən Fizika-Riyaziyyat Təmayüllü Liseyin VII-X siniflərində oxumaq üçün 1060 oğlan şagirdin sənədləri qəbul edilmişdir. Keçirilən qəbul imtahanlarının nəticələrinə əsasən, 160 şagird liseyin müvafiq siniflərinə qəbul olunmuşdur.

Piri Nağıyev demişdir ki, muxtar respublikada müəllim əməyinin qiymətləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 22 iyun 2015-ci il tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncamı müəllim əməyinə, ümumilikdə, təhsilə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

"Ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələri ilbəil yaxşılaşmışdır", – deyən təhsil naziri qeyd etmişdir ki, cari ilin məzunlarından 1582-si ali məktəblərə qəbul olunmuşdur. Bu da sənəd verənlərin 60 faizini təşkil edir. Ötən il isə abituriyentlərin 55,4 faizi tələbə adını qazanmışdır. Qəbul imtahanlarında məzunların 313-ü 500-700 arası bal toplamışdır ki, bu da ümumi qəbul olunanların 19,8 faizini təşkil edir. Şərur rayon Zeyvə kənd tam orta məktəbinin məzunu Əli Allahverdiyev qəbul imtahanlarında 700 bal toplamışdır.

2014-cü ildə 117 ümumtəhsil məktəbinin məzunları qəbul imtahanlarında yüksək nəticələr göstərmişdirsə, 2015-ci ildə belə məktəblərin sayı 129-a çatmışdır.

Şagirdlər arasında hərbi təhsilə maraq xeyli artmışdır. 2015-ci ildə məzunlardan 36-sı xüsusi təyinatlı ali hərbi məktəblərə qəbul olunmuşdur. Eyni zamanda Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 203-ü ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olmuşdur. Ümumilikdə, ali hərbi məktəblərə 1785 məzun qəbul olmuşdur ki, bu da həmin təhsil müəssisələrinə sənəd verənlərin 62,8 faizini təşkil edir. Bu isə ötən illə müqayisədə 4,6 faiz artım deməkdir.

Piri Nağıyev işdə buraxılan nöqsanlardan da danışmışdır. Bildirilmişdir ki, muxtar respublikamızın pedaqoji kollektivləri içərisində 2014-2015-ci tədris ili ərzində təhsil prosesinə ciddi yanaşmayan, yüksək şagird və müəllim kontingenti olmasına baxmayaraq, ali və orta ixtisas məktəblərinə qəbul zamanı çox zəif nəticə göstərən ümumtəhsil məktəblərimiz də olmuşdur. Belə ki, Şərur rayonu üzrə 1, Babək rayonu üzrə 3, Ordubad rayonu üzrə 4, Culfa rayonu üzrə 2, Şahbuz rayonu üzrə 1, Kəngərli rayonu üzrə 1 olmaqla muxtar respublika üzrə 12 tam orta məktəbdən ali və orta ixtisas məktəblərinə cəmi 20-30 faiz qəbul olmuşdur. Bununla yanaşı, muxtar respublikanın 25 tam orta məktəbindən sənəd verənlərin 30-40 faizi, 15 tam orta məktəbindən isə 40-50 faizi tələbə adını qazanmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Sonda qeyd edilmişdir ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və ümumtəhsil müəssisələrinin pedaqoji kollektivləri göstərilən qayğının müqabilində daha səylə çalışmalı, öz işlərini şagirdlərin bilik, bacarıq və vərdişlərinin yüksəldilməsi istiqamətində qurmalıdırlar.

Konfransa təhsil naziri Piri Nağıyev yekun vurmuşdur.

**Sara ƏZİMOVA**

***Naxçıvan Dövlət Universitetində yeni tədris ilinə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.***

## Naxçıvan Dövlət Universiteti növbəti tədris ilinə mühüm yeniliklərlə başlayacaq



Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq kollektivi qarşıdan gələn yeni tədris ili münasibətilə təbrik edib.

Rektor bildirib ki, ötən tədris ili ali məktəb üçün elm, tədris, beynəlxalq əlaqələrin inkişafı sahəsində bir sıra uğurlarla əlamətdar olub. Az qala yarıməsrlik bir tarixə malik, çoxillik ənənələrə söykənən ali təhsil ocağı bu gün müasir dünya təhsil sisteminin tələbləri səviyyəsində inamla inkişaf edir. Dövlət qayğısının nəticəsində universitet ötən tədris ilində müasir avadanlıqlarla təchiz olunub, yeni tədris laboratoriyaları, fənn kabinələri müəllim və tələbələrin ixtiyarına verilib. Universitet xəstəxanası və Baytarlıq təbabəti ixtisası üçün yeni binaların istifadəyə verilməsi müvafiq ixtisasların əyani şəkildə, daha mükəmməl öyrədilməsinə xidmət edir. Ali təhsil ocağı müasir informasiya-kommunikasiya vasitələrinin tətbiqi, elektron universitet, imtahanların elektron test üsulu ilə şəffaf və obyektiv keçirilməsi istiqamətində əhəmiyyətli uğurlara imza atıb. Dünya təhsil sisteminə inteqrasiya, təcrübə mübadiləsi, beynəlxalq əlaqələrin inkişafı istiqamətində görülən işlərə gəldikdə dünyanın 80-dən çox tanınmış universiteti ilə əməkdaşlıq edən bu ali məktəb TEMPUS proqramı çərçivəsində həyata keçirilən müxtəlif layihələrin iştirakçısıdır. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) ilə birgə hazırlanan "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin 2015-ci ildə uğurla tamamlanması Azərbaycan ali təhsil tarixində mühüm hadisədir.

Qeyd olunub ki, tələbə mobilliyi sahəsində də uğurlu addımlar atılıb. TEMPUS, HUMERİA, Mövlana proqramları çərçivəsində universitetin onlarla tələbəsi öz təhsillərini qardaş Türkiyə Cümhuriyyətinin müxtəlif ali məktəblərində, Rusiyada, Gürcüstanda, Cənubi Koreyada, Rumıniyada, Çexiyada davam etdiriblər. Naxçıvan Dövlət Universiteti mübadilə yolu ilə gələn xarici tələbələrə də uğurla ev sahibliyi edir. Doktorantura pilləsində universitetdə təhsil alan tələbələr sırasında Slovakiya və Polşa vətəndaşları da var.

Rektor yeni tədris ilində tədrisin keyfiyyətinin, nizam-intizamın artırılması, tələbələrin təhsilə, ictimai işlərə fəal cəlb olunması ilə bağlı qarşıda duran vəzifələrdən də danışıb.

Universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid universitetin 2015-2016-cı tədris ilinə mühüm nailiyyətlərlə qədəm qoyacağını vurğulayıb. Bolonya sisteminin, distant təhsilin, tədris sahəsində bir sıra yeniliklərin tətbiqindən danışan prorektor bildirib ki, "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi ali məktəbin idarəetmə sisteminin müasir texnologiyalar vasitəsilə təkmilləşdirilməsi, tələbələrə onlayn təhsil xidməti göstərən elektron təhsil şəbəkəsinin yaradılması, yüksəkkeyfiyyətli təhsil üçün universitetin müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədris işləri üzrə prorektor universitetin professor-müəllim və tələbə kontingenti haqqında məlumatların, tədrisə aid bütün sənədləşmə işləri və elektron imzaların hazırlanması, müəllimlərin mühazirələrinin video və slayd şəklində universitetin internet portalındakı "Elektron mühazirə" bölməsinə yerləşdirilməsi, arxivləşmə işi ilə bağlı məlumat verib, yeni formaya uyğun tələbə biletlərinin, ilkin olaraq birinci kurslarda tətbiq olunacaq elektron jurnalların hazırlanması, semestr imtahanlarının yeni sistemlə həyata keçirilməsi istiqamətində görüləcək işlərdən bəhs edib.

**Mehriban SULTAN**

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilmişdir.***

## Payız-qış mövsümünə hazırlığın vəziyyəti müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Tədbiri Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova açaraq demişdir ki, bu gün muxtar respublikamızda 28 muzey, 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 400-dən çox klub, mədəniyyət evi, kitabxana, mədəni-maarif müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Payız-qış mövsümündə müəssisələrin fasiləsiz və davamlı işləməsi görəcəyimiz tədbirlərdən asılı olacaqdır. Yalnız işə məsuliyyətlə yanaşmaqla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirə bilərik.

Nazir bildirmişdir ki, hal-hazırda muxtar respublika üzrə müstəqil qazanxanası olan mədəniyyət müəssisələrinin sayı 54, ümumi istilik sisteminə qoşulan müəssisələrin sayı 247, dizel yanacağı, neft sobası və digər vasitələrlə qızdırılan müəssisələrin sayı 188-dir. Mədəniyyət və turizm müəssisələrində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq yüksək səviyyədə təşkil olunmalıdır.

Nazirliyin aparatının ümumi sektor müdiri İman Alırzayev çıxışında nazirliyin tabeliyində olan müəssisə və təşkilatlarda payız-qış mövsümünə hazırlığın vəziyyəti haqqında məlumat vermiş, tələb olunan yanacaq və mal-materialın siyahısının hazırlandığını bildirmişdir. Qeyd edilmişdir ki, bu il nazirliyin tabeliyində olan müəssisələrin ehtiyacı üçün 54500 litr dizel yanacağı, 1200 kiloqram maye qaz və başqa mal-material ayrılması nəzərdə tutulmuşdur. Bu, istilik sistemi olmayan müəssisələr üçün nəzərdə tutulur. Müəssisə və təşkilatlarda müstəqil qazanxana və kombi sistemlərinin mövsümə hazırlığı vəziyyəti yoxlanılır, onlar tam hazır vəziyyətə gətirilir.

Sonra Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov, Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Ceyhun Fərəcov, Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sabiq İmanov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova, Naxçıvan Dövlət Kukla Teatrının direktoru Yasəmən Ramazanova payız-qış mövsümünə hazırlıqla bağlı məlumat vermişlər.

Tədbirə yekun vuran mədəniyyət və turizm naziri Natəvan Qədimova demişdir ki, mədəniyyət və turizm şöbələrinin müdirləri payız-qış mövsümünə hazırlıqla bağlı bütün mədəniyyət müəssisələrinin problemləri ilə maraqlanmalı, nöqsanlar qısa müddətdə aradan qaldırılmalıdır. Təhlükəsizlik qaydalarına əməl edilməsi üçün indidən maarifləndirici söhbətlər, məşğələlər təşkil edilməlidir. Qazanxana işçilərinin peşə təhsilinə diqqət yetirilməli, onlar qış geyimləri ilə təmin olunmalıdırlar. Mədəniyyət və turizm müəssisələrində dizel yanacağı, maye qaz, neft, şüşə, şifer, soba, polietilen və başqa mal-materiallar alınması işi həyata keçirilməli, onların düzgün bölünməsi və paylanması, lazımi yerlərə çatdırılması təmin edilməlidir.

**Əli RZAYEV**

## Muxtar respublikadan olan zəvvarlar Həcc ziyarətinə yola salınıblar



Həcc ziyarətinin başlanması münasibətilə Naxçıvan Muxtar Respublikasından 140 zəvvar müqəddəs Həcc ziyarətinə yola salınıb. Bu münasibətlə sentyabrın 10-da Naxçıvan Beynəlxalq Hava Limanında keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev bildirib ki, dini-mənəvi dəyərlər hər bir xalqın varlığını təcəssüm etdirir. Bu mənada, İslam dinini Azərbaycan xalqının milli-mənəvi sərvəti hesab edən ümummilli liderimiz Heydər Əliyev onun insanları paklığa, saflığa, sülhə, qardaşlığa və əmin-amanlığa çağırdığını daim vurğulayıb.

Muxtar respublikamızda da İslam dininə, mənəvi irsimizə diqqət və qayğı ilə yanaşıldığını bildirən Vüqar Babayev qeyd edib ki, bu gün Naxçıvanda tarixi-dini, mədəni abidələrin qorunması və bərpası daim diqqət mərkəzində saxlanılır, yeni məscidlər tikilir, dini, milli və mənəvi dəyərlərin yaşadılması, gələcək nəsillərə çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında" 2014-cü il 20 avqust tarixli Sərəncamı isə dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsi, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsində yeni mərhələnin başlanğıcına rəvac verib.

Naxçıvan Muxtar Respublikasının qazisi Mircəfər Seyidov çıxış edərək muxtar respublikamızda dini dəyərlərə göstərilən qayğıdan, bu istiqamətdə həyata keçirilən tədbirlərdən söhbət açıb.

Zəvvarlar adından danışan Əvəz Həsənov, İdris Əhmədov və Əsmər Salayeva göstərilən diqqətə görə minnətdarlıqlarını bildirib, müqəddəs ziyarətgahda ərazi bütövlüyümüzün təmin olunması, xalqımızın həmişə şən və firavan həyat sürməsi üçün dua edəcəklərini deyiblər.

**Rauf ƏLİYEV**

## Əlahiddə Ümumqoşun Orduda mənəvi-psixoloji hazırlıq diqqət mərkəzindədir





Əlahiddə Ümumqoşun Orduda şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin və hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq, birləşmə və hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri, psixoloq və klub rəisləri ilə "Döyüş əməliyyatları zamanı mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin çöl şəraitinə çıxarılması və fəaliyyəti metodikası" mövzusunda nümayiş-məşğələ keçirilib.

Nümayiş-məşğələnin keçirilməsində əsas məqsəd Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hərbi hissələrinin şəxsi heyətlə iş üzrə zabitlərinə, psixoloq və klub rəislərinə döyüş əməliyyatları zamanı mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin çöl şəraitinə çıxarılması qaydalarını bir daha göstərməkdir. Bundan başqa, inzibati ərazidə yerləşən yerli icra hakimiyyəti orqanları ilə birgə fəaliyyət üsulları, eləcə də mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin tərkib hissələri haqqında praktik biliklər də diqqətə çatdırılıb.

Məşğələdə döyüş əməliyyatları zamanı mənəvi-psixoloji hazırlıq məntəqəsinin harada, hansı qüvvə ilə necə təşkil olunması praktik olaraq göstərilib. Səyyar hərbi ideoloji məntəqənin, psixoloji kömək və bərpa, hüquq məsləhət məntəqələrinin, səyyar guşənin, səhra şəraitində klubun təşkili və fəaliyyəti haqqında ətraflı məlumat verilib. İnzibati ərazidə yerləşən yerli icra hakimiyyəti orqanı ilə birgə yaradılmış təşviqat qrupunun fəaliyyətinə baxış olub.

Çöl şəraitində keçirilən nümayiş-məşğələdə mənəvi-psixoloji təminatın müasir döyüş əməliyyatlarının ən mühüm tərkib hissəsi kimi inkişafı, rolu və əhəmiyyətinin vacibliyi bir daha öz təsdiqini tapıb.

Əlahiddə Ümumqoşun Orduda şəxsi heyətin döyüş bacarığının gündən-günə gücləndirilməsi və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi işi daim diqqət mərkəzindədir. Çünki mənəvi-psixoloji cəhətdən hazırlıqlı hərbi qulluqçu yüksək mənəvi ruha, psixoloji gərginliyi dəf etməyə və fiziki cəhətdən dözümlü olmağa qadirdir. Həm də o, düşmənə qarşı fədakarlıqla döyüşən, əsas qüvvələrdən ayrı düşdükdə belə, iradəli olan, qələbə əzmini itirməyən, soyuqqanlı, şüurlu və düşüncəli fəaliyyət göstərməklə düşməni məhv etmək qabiliyyətinə malik olur.

**Əlahiddə Ümumqoşun Ordunun**
**Mənəvi-psixoloji təminat şöbəsi**

## Tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılmasının üçüncü turuna başlanılıb

Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan tibb işçiləri həm obliqat, həm də risk qrupuna (xüsusilə ginekologiya, stomatologiya, cərrahiyyə, hemodializ, laboratoriya şöbələrinin işçiləri) daxil olduqları üçün onların hepatit B virusuna yoluxma ehtimalı daha çoxdur. Odur ki, bu təhlükəli virus infeksiyası ilə qarşılaşmamaq üçün tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılması məqsədilə üç turdan ibarət immunlaşdırılma işi həyata keçirilir. Bu il fevral və mart aylarında aparılan ilk turda 1165 tibb işçisinə hepatit B vaksini vurulmuşdur. Həmin tibb işçiləri aprel ayında keçirilən ikinci tura cəlb edilmiş, birinci turda vaksin almayan 45 nəfərə isə hepatit B vaksini ilə immunlaşdırılma işi icra olunmuşdur. Hepatit B vaksininin vurulması üçün rayon mərkəzi xəstəxanalarında üç, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında dörd orta tibb işçisindən (vaksinator daxil olmaqla) ibarət briqada yaradılmışdır. Aksiya həm rayon mərkəzi xəstəxanalarının, həm də Naxçıvan şəhərindəki tibb müəssisələrinin işçilərini əhatə etmişdir.

Vaksin alan bütün tibb işçilərinin qanı Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə laboratoriyasında hepatit B virusuna qarşı analiz olunmuş və həmin qan nümunələrinin hepatit B-yə görə seroloji diaqnostikası aparılmışdır.

Tibb işçilərinin hepatit B vaksini ilə immunlaşdırılmasının üçüncü turu isə ikincidən 6 ay sonrakı müddətdə həyata keçirilir. Artıq üç gündür ki, bu aksiyaya start verilib. Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında keçirilən tədbirə şəhər səhiyyə müəssisələrinin 34 orta tibb işçisi cəlb olunub. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-epidemioloqu Zülfiyyə Həsənova çıxış edərək tədbirin mahiyyəti, immunlaşdırmanın əhəmiyyəti barədə məlumat vermişdir.

Sonra tədbirdə iştirakçıların hepatit B vaksini ilə immunlaşdırılması işi icra olunmuşdur.

Xatırladaq ki, muxtar respublikada ilk dəfə belə aksiya 2007-ci ildə, ikinci dəfə isə 2012-ci ildə Naxçıvan şəhərindəki cərrahi, ginekoloji və stomatoloji xidmətlə məşğul olan tibb müəssisələrində həyata keçirilmişdir. Həmin müddətdə cərrahların, ginekoloqların, stomatoloqların və digər tibb işçilərinin böyük bir qrupu hepatit B vaksini ilə peyvəndə cəlb olunmuşlar. 2007-ci ildə peyvənd alan tibb işçilərinin hamısı 2012-ci ildə revaksinasiya edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin**
**mətbuat xidməti**

## Müharibə veteranının 90 yaşı qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq növbəti tədbir keçirilib.*

Sentyabrın 10-da Şərur rayon Daşarx kənd sakini, müharibə veteranı Zeynalabdin Həsənovun 90 yaşının tamam olması münasibətilə onunla görüş olub.

Tədbirdə iştirak edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsinin ağır və çətin sınaqlarından keçən veteranlara xüsusi diqqət və qayğı göstərilir. Onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Belə ki, onlar minik avtomobilləri, həmçinin texniki-bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunurlar. Pensiya və müavinətlərlə yanaşı, hər ay onlara Prezident təqaüdü ödənilir, sanatoriya və pansionatlara müalicəyə göndərilirlər. Bütün bunlar müharibə veteranlarının sağlamlığının qorunmasına, rifahlarının yüksəlməsinə xidmət edir.

Zeynalabdin Həsənov ona göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin mətbuat xidməti**

## "Kitabi-Dədə Qorqud"a həsr olunmuş tədbir

*Dünən Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə İmran Qasımov adına Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyi ilə əlaqədar tədbir keçirilib.*



Tədbiri Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov açaraq bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyev "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixdə Sərəncam imzalayıb. Bu, "Kitabi-Dədə Qorqud" dastanlarına verilən ardıcıl diqqətin növbəti təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 25 iyul 2015-ci il tarixli Sərəncamına əsasən, mədəni-maarif müəssisələrində də çoxsaylı tədbirlər keçirilir.

Dünya ədəbiyyatının nadir eposlarından olan bu abidədə tariximiz və milli-mənəvi dəyərlərimiz yaşadılır. Epos xalqımızın zəngin adət-ənənələrini, yaşam tərzini, dünyagörüşünü öyrənmək baxımından da dəyərli sənət xəzinəsidir.

Sonra Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları Şamama Səfərova, Pirqulu Məmmədov, İnci Ələkbərova "Kitabi-Dədə Qorqud" eposunun mövzu və məzmunundan, bədii məziyyətlərindən danışıblar. Çıxışlarda Naxçıvan Muxtar Respublikasında da "Kitabi-Dədə Qorqud" dastanları ilə əlaqədar görülmüş işlərdən söhbət açılıb. Qeyd edilib ki, Naxçıvan şəhərində Dədə Qorqudun abidəsinin ucaldılması milli-mənəvi dəyərlərə, ədəbi-bədii irsə, mədəni abidələrimizə, əbədiyaşar sənət xəzinəmizə ehtiramın ifadəsidir.

Tədbirin sonunda "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***İşəgötürən tərəfin əcnəbi və ya vətəndaşlığı olmayan şəxsi başqa işə keçirməsi proseduru hansı qaydada aparılır?***

**Cavab:** Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 70-ci maddəsinə əsasən, əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirildikdə onun üçün yeni iş icazəsi alınmalıdır. Hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) zamanı da əcnəbi və vətəndaşlığı olmayan şəxs üçün yeni iş icazəsi alınmalıdır.

Əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə həmin iş icazəsinin müddəti əvvəlki iş icazəsinin müddətinin qüvvədə qalan hissəsindən çox olmamalıdır.

Əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirildikdə nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizə-anket və əcnəbinin və vətəndaşlığı olmayan şəxsin nəzərdə tutulan işi yerinə yetirmək üçün tələb edilən ixtisasa malik olduğunu təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti, hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) zamanı isə nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizə-anket və hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq edilmiş surətləri Dövlət Miqrasiya Xidmətinə təqdim edilir.

Əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə əlavə dövlət rüsumu ödənilmir.

Əcnəbi və vətəndaşlığı olmayan şəxsin iş icazəsinin müddəti bitdikdə və ya əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, onu başqa işəgötürən yeni iş icazəsi almaqla öz yanında işə dəvət edə bilər.

İşəgötürən tərəfindən əcnəbi və vətəndaşlığı olmayan şəxsə eyni vaxtda iki iş icazəsinin alınması qadağandır.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Miqrasiya Xidmətinin**
**Miqrasiya proseslərinin təhlili və**
**informasiya təminatı şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 700